| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 12.09.2017 |
| QEYDİYYAT NÖMRƏSİ | 1598 |
| ADI | “Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza sertifikatının verilməsi Qaydası”nın və “www.azexport.az” internet portalı haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Xalq Qəzeti (Dərc olunma tarixi: 13-09-2017, Nəşr Nömrəsi: 198), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 30-09-2017, Nəşr nömrəsi: 09, Maddə nömrəsi: 1645) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 13.09.2017 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 430.030.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | 13201709121598 |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 13.09.2017 |

**“Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza sertifikatının verilməsi Qaydası”nın və “www.azexport.az” internet portalı haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 fevral tarixli 1255 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza sertifikatının verilməsi Qaydası” təsdiq edilsin (əlavə olunur).

2. “www.azexport.az” internet portalı haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

3. “www.azexport.az” internet portalının (bundan sonra – Portal) operatoru İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi müəyyən edilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.4. “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi vasitəsilə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Respublikasının Vergilər Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi arasında məlumat mübadiləsinin aparılması ilə bağlı müvafiq normativ hüquqi aktların layihələrini hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.5. informasiya sistemlərinin Portala inteqrasiyası üçün texniki tələbləri üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.6. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi:

5.1. Portalın fəaliyyətinin təşkili, saxlanması və ondan səmərəli istifadənin təmin edilməsi üçün zəruri tədbirlər görsün;

5.2. Portalın saxlanma xərclərinin maliyyələşdirilməsi ilə əlaqədar təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.3. Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti ilə birlikdə Portalın təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görsün.

6. Müəyyən edilsin ki:

6.1. bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilmiş Əsasnamənin 10.3.5-ci yarımbəndində nəzərdə tutulan sərbəst satış sertifikatı ixracatçıların müraciəti əsasında yalnız Azərbaycan Respublikasında istehsal olunan mallara verilir;

6.2. ixracatçılar tərəfindən sərbəst satış sertifikatının əldə olunması könüllü xarakter daşıyır;

6.3. sərbəst satış sertifikatı ixrac olunan malın Azərbaycan Respublikasında sərbəst dövriyyədə olduğunu, aidiyyəti dövlət orqanları və qurumları tərəfindən sertifikatlaşdırıldığını və standartlara cavab verdiyini təsdiqləyən sənəddir;

6.4. sərbəst satış sertifikatı Azərbaycan və ingilis dillərində olmaqla, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən verilir.

7. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Respublikasının Vergilər Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi ilə razılaşdırmaqla, bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilmiş Əsasnamənin tələblərinə uyğun olaraq, Portalın fəaliyyətini təmin edəcək hüdudlarda onun “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminə inteqrasiya olunmasını dörd ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

8. Özlərinə məxsus informasiya sistemləri vasitəsilə Portalda informasiya mübadiləsində iştirak edən orqanlar informasiya sistemlərinin həmin Portala inteqrasiya olunmasını təmin

edib, görülmüş işlərin nəticəsi barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər.

9. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 12 sentyabr 2017-ci il
№ 1598

Azərbaycan Respublikası Prezidentinin
2017-ci il 12 sentyabr tarixli 1598
nömrəli Fərmanı ilə
təsdiq edilmişdir

**Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza sertifikatının verilməsi**

**QAYDASI**

1.1. Bu Qayda "Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 fevral tarixli 1255 nömrəli Fərmanının 3.1.2-ci yarımbəndinin icrası ilə əlaqədar hazırlanmışdır və Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza sertifikatının verilməsi ilə bağlı münasibətləri tənzimləyir.

1.2. Bu Qaydanın məqsədləri üçün istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.2.1. qeyri-rezident – xarici ölkədə yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, xarici ölkədə daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşları, xarici ölkədə fəaliyyət göstərən hüquqi şəxslər;

1.2.2. elektron imza – gücləndirilmiş elektron imza olan "E-imza" və ya "ASAN imza";

1.2.3. "E-imza" – Azərbaycan Respublikasının *Rəqəmsal İnkişaf və Nəqliyyat* Nazirliyində qeydiyyatdan keçmiş və akkreditə edilmiş sertifikat xidmətləri mərkəzi tərəfindən "token" tipli məlumat daşıyıcısında verilən gücləndirilmiş elektron imza vasitəsi;[1]

1.2.4. "ASAN imza" (mobil elektron imza) – Azərbaycan Respublikası *İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin* Asan Sertifikat Xidmətləri Mərkəzi tərəfindən verilən və elektron imza vasitəsi kimi mobil telefon və xüsusi SIM kart tələb edən gücləndirilmiş elektron imza vasitəsi;[2]

1.2.5. portal – "Azərbaycan Respublikasında istehsal olunan malların vahid məlumat bazasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 21 sentyabr tarixli 2349 nömrəli Sərəncamının 1-ci hissəsinin icrası ilə bağlı yaradılmış www.azexport.az internet portalı;

1.2.6. "virtual FİN" – elektron imza verilməsi üçün portal vasitəsilə daxil olmuş müraciətlərlə bağlı müsbət qərar qəbul edilmiş qeyri-rezidentlərə "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi ilə verilən, hərflərdən və rəqəmlərdən ibarət unikal fərdi identifikasiya nömrəsi;

1.2.7. "e-qeyri-rezident" altsistemi – "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemində yaradılan, qeyri-rezidentlərin elektron imza verilməsi barədə müraciətlərini qəbul və təhlil edən, onlara "virtual FİN" verən, habelə "virtual FİN" verilmiş qeyri-rezidentlərin reyestrini aparan altsistem;

1.2.8. Mərkəz – Azərbaycan Respublikasının *Rəqəmsal İnkişaf və Nəqliyyat* Nazirliyində qeydiyyatdan keçmiş və akkreditə edilmiş sertifikat xidmətləri mərkəzi və Azərbaycan Respublikası *İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin* Asan Sertifikat Xidmətləri Mərkəzi;

1.2.9. sertifikat – "E-imza" və ya "ASAN imza" sertifikatı;

1.2.10. "Biznes" sertifikatı – xarici ölkədə fəaliyyət göstərən hüquqi şəxslərə verilən, elektron xidmət istifadəçisinin autentifikasiyasını, sənədin elektron imzalanmasını və imzalayan şəxsin şəxsiyyətinin müəyyən edilməsini (identifikasiyasını) təmin edən, möhür kimi istifadə edilən və əlavə olaraq imzanın xüsusi təyinatı, onun istifadə sahəsi, möhür üzərindəki mətn və bu möhürün aid olduğu vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN) qeyd edilən gücləndirilmiş elektron imzanın təkmil sertifikatı;

1.2.11. "Şəxsi" sertifikat – xarici ölkədə yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə, xarici ölkədə daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşlarına verilən, yalnız elektron xidmət istifadəçisinin autentifikasiyasını, sənədin elektron imzalanmasını

və imzalayan şəxsin şəxsiyyətinin müəyyən edilməsini (identifikasiyasını) təmin edən gücləndirilmiş elektron imzanın təkmil sertifikatı.

1.3. Bu Qaydada istifadə olunan digər anlayışlar “Elektron imza və elektron sənəd haqqında” Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının digər qanunlarında müəyyənləşdirilmiş mənaları ifadə edir.

1.4. Bu Qayda qeyri-rezident anlayışı ilə əhatə olunmayan digər şəxslərə elektron imzanın verilməsi ilə bağlı münasibətlərə şamil edilmir.

1.5. Qeyri-rezidentlərə elektron imza sertifikatının verilməsi ilə bağlı bu Qaydada tənzimlənməyən məsələlər digər normativ hüquqi aktlarla müəyyən olunmuş qaydada tənzimlənir.

1.6. Elektron imzanın verilməsi ilə bağlı xərclərin maliyyələşdirilməsi məqsədilə Mərkəz, habelə mobil operator tərəfindən qarşılıqlı razılıq əsasında şərtlər və ödənişlər müəyyən edilə bilər.

## 2. Elektron imza sertifikatının verilməsinin təşkili, müraciətin qəbulu və sertifikatın verilməsi

2.1. Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları (bundan sonra – diplomatik nümayəndəlik) vasitəsilə elektron imza sertifikatının verilməsi üçün qeyri-rezidentlərin müraciətlərinin qəbulu portal vasitəsilə “e-qeyri-rezident” altsistemində həyata keçirilir.

2.2. “E-qeyri-rezident” altsistemi “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemində yaradılır və portala inteqrasiya olunur.

2.3. Sertifikat almaq istəyən qeyri-rezident portala daxil olaraq, bu Qaydanın əlavəsində müəyyən olunan ərizə formasını real vaxt rejimində doldurur və bu Qaydanın 1.6-cı bəndinə uyğun müəyyən olunduğu halda, ödənişi portal vasitəsilə onlayn qaydada həyata keçirir. Ərizəyə aşağıdakı sənədlər əlavə edilir:

2.3.1. qeyri-rezidentin şəxsiyyətini təsdiq edən sənədin (pasport və ya şəxsiyyət vəsiqəsi) surəti;

2.3.2. biometrik identifikasiya tələblərinə uyğun 1 ədəd rəngli fotoşəkil (3,5x4,5 sm ölçüdə);

2.3.3. müraciəti qeyri-rezidentin nümayəndəsi etdikdə, qeyri-rezident adından çıxış etmək səlahiyyəti olan şəxsə verilən etibarnamə.

2.4. Qeyri-rezident elektron ərizəsində “E-imza” və ya “ASAN imza” sertifikatı, habelə “Biznes” sertifikatı və ya “Şəxsi” sertifikat almaq istəyi ilə bağlı müvafiq xananı qeyd edir.

2.5. Qeyri-rezident elektron ərizəsində “ASAN imza” sertifikatı almaq istədiyini qeyd etdiyi təqdirdə, müvafiq mobil operatoru və mobil nömrəni seçir, habelə bu Qaydanın 1.6-cı bəndinə uyğun müəyyən olunduğu halda, bununla bağlı ödənişi portal vasitəsilə onlayn qaydada ödəyir.

2.6. Ərizə qeyri-rezident tərəfindən təsdiq edildikdən sonra portalda məlumatların tamlığı yoxlanılır və çatışmazlıq aşkar edilmədikdə, ərizə real vaxt rejimində qeydiyyata alınaraq ona əlavə olunmuş sənədlərlə birlikdə “e-qeyri-rezident” altsisteminə yönəldilir. Müraciət edən şəxsin ərizəsində qeyd olunmuş elektron poçt ünvanına ərizənin qeydiyyata alınması barədə bildiriş və (və ya) mobil nömrəsinə SMS göndərilir.

2.7. Ərizə və ona əlavə olunmuş sənədlər “e-qeyri-rezident” altsistemi daxilində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə, Xarici İşlər Nazirliyinə, Dövlət Təhlükəsizliyi Xidmətinə və Xarici Kəşfiyyat Xidmətinə yönəldilir.

2.8. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Xarici İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Xarici Kəşfiyyat Xidməti 3 (üç) iş günü müddətində ərizəyə dair mənfi rəy vermədikdə, avtomatik olaraq “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi tərəfindən qeyri-rezidentə “virtual FİN” verilir. Xaricdə daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşlarına verilmiş “virtual FİN” onların şəxsiyyət vəsiqələrinin mövcud fərdi identifikasiya nömrəsi (FİN) ilə eynilik təşkil edir. Müraciət portal vasitəsilə, sertifikatın növündən asılı olaraq, müvafiq Mərkəzə göndərilir.

2.9. Təqdim olunmuş sənədlərdə çatışmazlıq aşkar edilmədikdə, Mərkəz elektron imza sertifikatının verilməsi barədə qərar qəbul edir. Həmin qərar və qeyri-rezidentlə Mərkəz arasında sertifikatın verilməsinə dair müqavilə təsdiqlənərək qeyri-rezident tərəfindən də təsdiqlənməsi üçün diplomatik nümayəndəliyə göndərilir. Bu barədə portal vasitəsilə real vaxt rejimində müraciət edən şəxsin ərizəsində qeyd olunmuş elektron poçt ünvanına bildiriş və (və ya) mobil nömrəsinə SMS göndərilir.

2.10. Diplomatik nümayəndəliyə göndərilməsi məqsədilə “E-imza” sertifikatı və “token” Azərbaycan Respublikasının *Rəqəmsal İnkişaf və Nəqliyyat* Nazirliyində qeydiyyatdan keçmiş və akkreditə edilmiş sertifikat xidmətləri mərkəzi tərəfindən təqdim edilir. “ASAN imza” sertifikatı Azərbaycan Respublikası *İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin* Asan Sertifikat Xidmətləri Mərkəzi, müvafiq Sim kart və həmin Sim kartdan istifadəyə dair mobil operator tərəfindən 2 nüsxədə imzalanmış müqavilə isə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən müvafiq aktla Azərbaycan Respublikasının Xarici İşlər

Nazirliyinə təhvil verilir.

2.11. Bu Qaydanın 2.9-cu bəndində qeyd olunan qərar diplomatik nümayəndəliyə daxil olduqdan sonra 1 (bir) iş günü müddətində qeyri-rezident həmin diplomatik nümayəndəliyə dəvət edilir.

2.12. Qeyri-rezident təyin olunmuş vaxtda diplomatik nümayəndəliyə gələrək, portal vasitəsilə təqdim olunmuş sənədlərin əslini, habelə biometrik identifikasiya tələblərinə uyğun 1 ədəd rəngli fotoşəkli (3,5x4,5 sm ölçüdə) təqdim edir. Diplomatik nümayəndəlik sənədlərin əsli ilə portalda real vaxt rejimində təqdim olunmuş sənədlərin autentikliyini yoxladıqdan sonra sənədlərin əslini qeyri-rezidentə qaytarır.

2.13. Portalda real vaxt rejimində təqdim olunmuş məlumatlarla qeyri-rezidentin təqdim etdiyi məlumatlarda uyğunsuzluq aşkar edilərsə, diplomatik nümayəndəlik sertifikatın verilməsindən imtina edir və "virtual FİN"-in ləğv edilməsi ilə bağlı portal vasitəsilə "e-qeyri-rezident" altsistemində müvafiq qeyd aparır.

2.14. Portalda real vaxt rejimində təqdim olunmuş məlumatlarla qeyri-rezidentin təqdim etdiyi məlumatlarda uyğunsuzluq aşkar edilmədikdə, diplomatik nümayəndəlik tərəfindən sertifikatın verilməsi ilə bağlı müqavilə, "ASAN imza" sertifikatı əldə etdikdə isə həmçinin həmin Sim kartdan istifadəyə dair müqavilə imzalanmaq üçün qeyri-rezidentə təqdim edilir.

2.15. Qeyri-rezident tərəfindən bu Qaydanın 2.14-cü bəndində nəzərdə tutulan müqavilələr imzalandıqdan sonra həmin müqavilələrin bir nüsxəsi, "E-imza" və ya "ASAN imza" setifikatı, müvafiq "token" və ya Sim kart qeyri-rezidentə verilir.

2.16. Qeyri-rezident tərəfindən imzalanmış müqavilənin ikinci nüsxəsi müvafiq Mərkəzə və mobil operatora təqdim olunmaq üçün ildə iki dəfədən az olmayaraq diplomatik nümayəndəlik tərəfindən Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə təhvil verilir.

2.17. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Qaydanın 2.16-cı bəndinə əsasən təhvil alınmış müqavilələri 1 (bir) iş günü müddətində aidiyyəti üzrə Azərbaycan Respublikasının *Rəqəmsal İnkişaf və Nəqliyyat* Nazirliyinə ("E-imza" sertifikatının verilməsi ilə bağlı imzalanmış müqavilələri) və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə ("ASAN imza" sertifikatının verilməsi və Sim kartdan istifadəyə dair müqavilələri) təqdim edir.

2.18. Azərbaycan Respublikasının *Rəqəmsal İnkişaf və Nəqliyyat* Nazirliyi və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi bu Qaydanın 2.17-ci bəndinə əsasən təqdim olunan müqavilələri 3 (üç) iş günü müddətində aidiyyəti üzrə göndərirlər.

2.19. Qeyri-rezidentlərə verilən elektron imza sertifikatının qüvvədəolma müddəti 3 (üç) ildir.

2.20. Sertifikat xidmətlərinin həyata keçirilməsi üçün qeyri-rezidentlər tərəfindən bu Qaydanın 1.6-cı bəndinə əsasən ödənilmiş ödənişlər heç bir halda geri qaytarılmır.

## 3. Elektron imza sertifikatının qüvvəsinin dayandırılması, bərpası və ləğvi

3.1. Sertifikat verildikdən sonra Mərkəz "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun 13-cü və 14-cü maddələrində müəyyən edilmiş hallarda onun qüvvəsini dayandıra, bərpa və ya ləğv edə bilər. Bu zaman Mərkəz "Sertifikatlar reyestri"ndə sertifikatın vəziyyətindəki dəyişiklikləri qeyd edir.

3.2. İmza sahibi sertifikatın qüvvəsinin dayandırılması, bərpası və ya ləğvi üçün portal vasitəsilə diplomatik nümayəndəliyə və ya birbaşa sertifikatı vermiş Mərkəzə müraciət etməlidir.

3.3. Diplomatik nümayəndəlik bu Qaydanın 3.2-ci bəndinə əsasən daxil olan müraciəti dərhal, sertifikatın növündən asılı olaraq, müvafiq Mərkəzə göndərir.

3.4. Mərkəz bu Qaydanın 3.3-cü bəndində nəzərdə tutulan müraciətə uyğun olaraq dərhal müvafiq tədbir görür, "Sertifikatlar reyestri"ndə sertifikatın vəziyyətindəki dəyişiklikləri qeyd edir və bu barədə diplomatik nümayəndəliyi, qeyri-rezident tərəfindən birbaşa Mərkəzə müraciət olunduğu hallarda isə həmçinin qeyri-rezidenti onun ərizəsində qeyd olunmuş elektron poçt ünvanına bildiriş və (və ya) mobil nömrəsinə SMS göndərməklə məlumatlandırır. Diplomatik nümayəndəlik bu barədə qeyri-rezidenti onun ərizəsində göstərilmiş elektron poçt ünvanına bildiriş və (və ya) mobil nömrəsinə SMS göndərməklə məlumatlandırır.

3.5. İmzayaratma məlumatlarının məxfiliyinin pozulması kimi qiymətləndirilən aşağıdakı hallarda imza sahibi dərhal diplomatik nümayəndəliyi və ya sertifikatın növündən asılı olaraq birbaşa Mərkəzi məlumatlandırmalıdır:

3.5.1. imzayaratma məlumatlarının daşıyıcısı itdikdə;

3.5.2. imzayaratma məlumatlarının itmiş daşıyıcısı tapıldıqda;

3.5.3. informasiya sistemində konfidensial informasiyanın sızmasına və ya təhrif olunmasına ciddi şübhələr olduqda;

3.5.4. imzayaratma məlumatları daşıyıcılarının saxlandığı vasitələrə müdaxilə əlamətləri və ya buna dair şübhələr olduqda;

3.5.5. imzayaratma məlumatları və onların aktivləşdirilməsi kodu digər şəxslərə bəlli olduqda.

3.6. Mərkəzin imzayaratma məlumatlarının məxfiliyi pozulduqda, Mərkəz müvafiq təkmil

sertifikatın ləğv edilməsi, həmçinin imzayaratma məlumatlarının dəyişdirilməsi üçün təxirəsalınmaz tədbirlər həyata keçirir. Bu halda Mərkəz xidmət göstərdiyi imza sahiblərini məlumatlandırır və onların imzayaratma məlumatları ilə imzalanmış sertifikatlarının dəyişdirilməsini bilavasitə və ya diplomatik nümayəndəlik vasitəsilə ödənişsiz təmin edir.

## 4. Elektron imza sertifikatı barədə sorğular

4.1. Sertifikat xidmətlərinin istifadəçiləri verilmiş sertifikatlar barədə məlumatların təqdim olunması, imzayoxlama məlumatının imza sahibinə məxsus olmasının təsdiqlənməsi barədə sertifikatı vermiş Mərkəzə portal vasitəsilə birbaşa sorğu ilə müraciət edə bilərlər.
4.2. İmza sahibinin razılığının olmadığı hallar istisna edilməklə, sertifikatlar barədə sorğulara əsasən, Mərkəz verdiyi sertifikatın məxsus olduğu şəxs, sertifikatın statusu və sertifikat barədə digər məlumatları verə bilər.
4.3. Sertifikatlar barədə sorğular üzrə xidmət göstərilməsi Mərkəz tərəfindən reyestr məlumatları əsasında aparılır və məlumatların verilməsinə xidmət haqqı alınmır.
4.4. Mərkəz sertifikatların vəziyyətinin real vaxt rejimində də yoxlanılmasını həyata keçirə bilər.

## 5. Qeyri-rezidentlərə verilmiş elektron imza sertifikatlarının reyestrinin aparılması

5.1. Qeyri-rezidentlərə verilmiş elektron imza sertifikatlarının reyestri (bundan sonra – Reyestr) müvafiq Mərkəz tərəfindən "e-qeyri-rezident" altsistemində aparılan və gücləndirilmiş elektron imza ilə təsdiq edilən siyahıdır.
5.2. Reyestrə aşağıdakı məlumatlar daxil edilir:
5.2.1. sertifikatın seriya nömrəsi;
5.2.2. imza sahibi barədə məlumatlar və "virtual FİN";
5.2.3. sertifikatın qüvvədəolma müddəti (müddətin başlandığı və qurtardığı vaxt, tarix);
5.2.4. sertifikatın qüvvəsinin dayandırılması və ya ləğv edilməsi, tarixi və səbəbi.
5.3. Həftənin 7 günü, günün 24 saatı ərzində Reyestrə müraciət imkanı təmin edilməlidir.
5.4. Mərkəz qüvvədə olan, qüvvəsi dayandırılmış və ləğv edilmiş sertifikatlar barədə məlumatların Reyestrə daxil edilməsini 1 (bir) iş günündən gec olmayaraq təmin etməlidir.
5.5. Reyestr aparılarkən aşağıdakılar təmin olunmalıdır:
5.5.1. Reyestrə məlumatları yalnız müvafiq səlahiyyətli işçilər daxil etməlidirlər;
5.5.2. məlumatlarda imza sahibinin icazəsi olmadan dəyişiklik edilməməlidir;
5.5.3. imza sahibindən icazəsiz müdaxilənin qarşısının alınması üçün tədbirlər görülməlidir.

"Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza sertifikatının verilməsi Qaydası"na
Əlavə

## Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza sertifikat xidmətlərinin göstərilməsi haqqında

## ƏRİZƏ

| | |
|---|---|
| Tarix: "_______" ______20 | Fotoşəkil 3,5x4,5 |

**Sertifikat xidmətlərinin göstərilməsi ilə bağlı aşağıda qeyd olunan sahələrdən biri seçilir:**

□ 1 - sertifikatın verilməsi; □ 2 - ilkin ərizə məlumatlarında dəyişiklik edilməsi;
□ 3 - sertifikatın qüvvəsinin dayandırılması; □ 4 - sertifikatın qüvvəsinin bərpa edilməsi;
□ 5 - sertifikatın ləğv edilməsi.

## 1. ELEKTRON DAŞIYICININ TİPİ

| | |
|---|---|
| 1.1.<br>Token<br>□ | |
| 1.2. ASAN imza SİM kartı □ | 1.2.0. ASAN imza SİM kartına bağlı olan<br>mobil telefon nömrəsi:<br>(+994 _______________) |

**2. SERTİFİKATDAN İSTİFADƏ SAHƏLƏR (NÖVÜ)**

| | |
|---|---|
| 2.1. Şəxsi istifadə ilə bağlı □ | 2.2. Biznes fəaliyyəti ilə bağlı (kommersiya hüquqi şəxsin işçisi (nümayəndəsi) olduqda həmin fəaliyyətlə bağlı) □ |

| | | | |
|---|---|---|---|
| **3. ƏRİZƏÇİ BARƏDƏ MƏLUMATLAR** | | | |
| 3.1. Soyadı | 3.2. Adı | 3.3. Atasının adı | |
| 3.4. Doğulduğu tarix (gün, ay, il) və yer | 3.5. Cinsi | 3.6. Vətəndaşlığı | |
| 3.7. Daimi yaşadığı ölkə | 3.8. Daimi yaşadığı ünvan | 3.9. Qeydiyyatda olduğu ünvan | |
| 3.10. Şəxsiyyətini təsdiq edən sənədin növü, seriyası, nömrəsi və etibarlılıq müddəti | | 3.11. Əlaqə telefonları (mobil, ev, iş) | 3.12. E-mail |
| 3.13. Şəxsiyyətini təsdiq edən sənədi verən orqan və ölkə | | | |
| 3.14. Ərizəçinin çalışdığı 3 struktur vahidinin adı və vəzifəsi | 3.15. Möhür səlahiyyəti<br>Var □<br>Yoxdur □ | 3.16. Kommersiya hüquqi şəxsin möhür məlumatları | |
| 3.17. Bank hesabı haqqında məlumatlar (benefisiarın adı, bankın adı, yerləşdiyi ölkə, SWIFT, BIC) | | | |
| 3.18. İstifadəçi İD-si | | | |
| 3.19. VÖEN-i (əgər varsa) | | | |
| 3.20. Gizli sual | | | |
| 3.21. Gizli suala cavab (parol) | | | |
| **4. Qeyri-rezidentin adından çıxış etmək səlahiyyəti olan şəxs haqqında məlumatlar:** | | | |
| 4.1. Soyadı | 4.2. Adı | 4.3. Atasının adı | |
| 4.4. Doğulduğu tarix (gün, ay, il) və yer | 4.5. Cinsi | 4.6. Vətəndaşlığı | |
| 4.7. Daimi yaşadığı ölkə | 4.8. Daimi yaşadığı ünvan | 4.9. Qeydiyyatda olduğu ünvan | |
| 4.10. Şəxsiyyətini təsdiq edən sənədin növü, nömrəsi və etibarlılıq müddəti | | 4.11. Əlaqə telefonları (mobil, ev, iş) | 4.12. E-mail |
| 4.13. Şəxsiyyətini təsdiq edən sənədi verən orqan və ölkə | | | |
| 4.14. Etibarnamənin nömrəsi və tarixi | | | |
| **5. Digər müddəalar** | | | |
| 5.1. Sertifikatın seriya nömrəsi | | | |
| 5.2. 2.2-ci bənddə qeyd edilmiş kommersiya hüquqi şəxsin adı və VÖEN-i | | | |
| 5.3. Möhür kimi istifadə edilən gücləndirilmiş imzanın istifadə sahəsi - öz vəzifə səlahiyyətləri daxilində | | | |
| 5.4. Ərizəçinin gücləndirilmiş imzadan istifadə imkanları:<br>□ 1 - yalnız daxili sənədlərin imzalanması;<br>□ 2 - yalnız göndərilən (xarici) sənədlərin imzalanması;<br>□ 3 - daxili və göndərilən (xarici) sənədlərin imzalanması. | | | |
| 5.5. Sertifikatın qüvvəsi* | | | |
| Dayandırılsın □<br>“__” ______ 20___ - dən<br>“__” ______20___ - dək | Bərpa edilsin □<br>“__” ______ 20___ - dən | Ləğv edilsin □<br>“__” ______ 20___ - dən | |

| |
|---|
| **6. Ərizəni dolduran qeyri-rezident aşağıdakıları bəyan edir:**<br><br>6.1. Sertifikat xidmətlərinin göstərilməsi qaydaları, eləcə də sertifikatın verilməsi haqqında müqavilə ilə tanış oldum və onların yerinə yetirilməsi ilə bağlı öhdəlikləri qəbul etdiyimi təsdiqləyirəm;<br>6.2. Təqdim etdiyim məlumatlar düzgündür və onların həqiqiliyinin yoxlanılmasına razıyam;<br>6.3. Fərdi məlumatlarımın sertifikata daxil edilməsinə və onların sertifikatın istifadəsi ilə əlaqədar yayımlanmasına icazə verirəm. |

**Qeyd:** Sertifikat xidmətlərinin göstərilməsi ilə bağlı sahələrin seçilməsindən asılı olaraq ərizəçi aidiyyəti məlumat sahəsini doldurur.

________________________________________ ____________________
(ərizəçinin və ya səlahiyyətli nümayəndənin adı, soyadı, atasının adı) (İmzası)

(M.Y.)

Azərbaycan Respublikası Prezidentinin
2017-ci il 12 sentyabr tarixli 1598
nömrəli Fərmanı ilə
təsdiq edilmişdir

## “www.azexport.az” internet portalı haqqında

## ƏSASNAMƏ

### 1. Ümumi müddəalar

1.1. “www.azexport.az” internet portalı haqqında Əsasnamə (bundan sonra – Əsasnamə) “Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 fevral tarixli 1255 nömrəli Fərmanına və “Azərbaycan Respublikasında istehsal olunan malların vahid məlumat bazasının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 21 sentyabr tarixli 2349 nömrəli Sərəncamına uyğun hazırlanmışdır və “www.azexport.az” internet portalının (bundan sonra – Portal) hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən edir.

1.2. Portal Azərbaycan Respublikasında istehsal olunan mallar və həmin malların istehsalçıları barədə məlumatların əks etdirilməsini, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasında vergi ödəyicisi kimi qeydiyyatdan keçmiş şəxslərlə onların xarici biznes tərəfdaşları arasında sənədlərin, o cümlədən müqavilələrin elektron formada tərtibini və imzalanmasını, real vaxt rejimində transsərhəd elektron xidmətlərin həyata keçirilməsini, Azərbaycan Respublikasında istehsal olunan malları elektron ticarət qaydasında təqdim edən ixracatçıların ixrac əməliyyatlarını həyata keçirmək üçün tələb olunan icazələri vahid elektron ərizə əsasında elektron qaydada əldə etmələrini, ixrac gömrük bəyannaməsinin, habelə qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə dövlət büdcəsi hesabına ixrac təşviqinin ödənilməsi ilə bağlı müraciətlərin təqdim edilməsini, istifadəçilərin və iştirakçıların portaldan sərbəst istifadəsini, ona inteqrasiya olunmuş informasiya sistemlərindən məlumatların (əldə edilməsi qanunla məhdudlaşdırılan informasiya istisna olmaqla) əldə edilməsini və bu Əsasnamədə nəzərdə tutulmuş digər xidmətlərin göstərilməsini təmin edir.

1.3. Bu Əsasnamədə istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.3.1. operator – İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi;

1.3.2. iştirakçı – özünə məxsus informasiya sistemi ilə portalda informasiya mübadiləsində iştirak edən orqan;

1.3.3. istifadəçi – Azərbaycan Respublikasında və ya xarici dövlətdə vergi ödəyicisi kimi qeydiyyatdan keçmiş şəxs, habelə sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan fiziki şəxs;

1.3.4. istifadəçinin elektron kabineti – Azərbaycan Respublikasında istehsal olunan malların istehsalçıları tərəfindən məlumatların portala daxil edilməsini və yenilənməsini, habelə həmin malları elektron ticarət qaydasında təqdim edən ixracatçılar tərəfindən ixrac əməliyyatlarının həyata keçirilməsi ilə bağlı məlumatların əldə edilməsini və həmin məlumatlarla tanışlığı, ödənişlərin həyata keçirilməsini, operatorla və iştirakçılarla qarşılıqlı əlaqəni təmin edən xüsusi fərdi elektron səhifə;

1.3.5. “virtual FİN” – elektron imza verilməsi məqsədilə portal vasitəsilə daxil olmuş

müraciətlərlə bağlı müsbət qərar qəbul edilmiş qeyri-rezidentlərə “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi ilə verilən, hərflərdən və rəqəmlərdən ibarət unikal fərdi identifikasiya nömrəsi;

1.3.6. “e-qeyri-rezident” altsistemi – “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemində yaradılan və qeyri-rezidentlərin elektron imza verilməsi barədə müraciətlərini qəbul və təhlil edən, onlara “virtual FİN” verən, habelə “virtual FİN” verilmiş qeyri-rezidentlərin reyestrini aparan altsistem;

1.3.7. elektron imza – gücləndirilmiş elektron imza olan “E-imza” və ya “ASAN imza”;

1.3.8. “E-imza” – Azərbaycan Respublikasının *Rəqəmsal İnkişaf və Nəqliyyat* Nazirliyində qeydiyyatdan keçmiş və akkreditə edilmiş sertifikat xidmətləri mərkəzi tərəfindən “token” tipli məlumat daşıyıcısında verilən gücləndirilmiş elektron imza vasitəsi;[3]

1.3.9. “ASAN imza” (mobil elektron imza) – Azərbaycan Respublikası *İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin* Asan Sertifikat Xidmətləri Mərkəzi tərəfindən verilən və elektron imza vasitəsi kimi mobil telefon və xüsusi SİM kart tələb edən gücləndirilmiş elektron imza vasitəsi;[4]

1.3.10. sərbəst satış sertifikatı – ixrac olunan malın Azərbaycan Respublikasında sərbəst dövriyyədə olduğunu, aidiyyəti dövlət orqanları və qurumları tərəfindən sertifikatlaşdırıldığını və standartlara cavab verdiyini təsdiq edən, ixracatçılar tərəfindən könüllü olaraq əldə edilən və hüquqmüəyyənedici hesab olunmayan sənəd.

1.4. Bu Əsasnamədə istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş mənaları ifadə edir.

1.5. Portalın fəaliyyətinin təşkili, təkmilləşdirilməsi və saxlanma xərcləri dövlət büdcəsi və qanunla qadağan edilməyən digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Portalın saxlanma, fəaliyyət və inkişaf xərclərini maliyyələşdirmək məqsədilə Operator tərəfindən qarşılıqlı razılıq əsasında şərtlər və ödənişlər müəyyən edilə bilər.

## 2. Portalın fəaliyyət prinsipləri

2.1. Portalın fəaliyyəti aşağıdakı prinsiplər əsasında həyata keçirilir:

2.1.1. şəffaflıq – portalın fəaliyyətində aşkarlığın və hesabatlılığın təmin edilməsi, həyata keçirilən prosedurların və onların nəticələrinin izlənməsi imkanının mövcudluğu;

2.1.2. istifadə rahatlığı – istifadəçilərin və iştirakçıların portaldan istifadəsinin və informasiya mübadiləsinin rahat, əlavə əməliyyatlar aparılmadan təmin edilməsi;

2.1.3. səmərəlilik – müraciətlərin təqdim edilməsi, qəbulu, cavablandırılması üçün tələb olunan vaxtın və maliyyə xərclərinin optimallaşdırılması, habelə istifadəçilər və iştirakçılar arasında qarşılıqlı əlaqənin, istifadəçilərə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi;

2.1.4. operativlik – müraciətlərin təqdim edilməsinin, qəbulunun, cavablandırılmasının, nəticələrinin göndərilməsinin, informasiyanın əldə olunmasının və mübadiləsinin real vaxt rejimində həyata keçirilməsi;

2.1.5. əlaqəlilik – iştirakçıların informasiya sistemlərinin uzlaşdırılması və qarşılıqlı inteqrasiyasının təmin edilməsi;

2.1.6. təhlükəsizlik – sertifikatlaşdırılmış proqram təminatından və proqram-texniki vasitələrdən istifadə olunması, informasiya mübadiləsi zamanı normativ hüquqi aktların tələblərinə əməl edilməsi, təşkilati, texniki və texnoloji tədbirlər həyata keçirməklə informasiyanın tamlığının, dəyişməzliyinin və mühafizəsinin təmin olunması;

2.1.7. fasiləsizlik – portalda və ona inteqrasiya olunmuş informasiya sistemlərində aparılan təşkilati, inzibati, texniki və digər dəyişikliklərdən asılı olmayaraq, fəaliyyətin fasiləsiz həyata keçirilməsi;

2.1.8. modulluq və miqyaslılıq – ən son texnologiyalardan istifadə etməklə portalın daim təkmilləşdirilməsi və inkişaf etdirilməsi, funksiya və imkanlarının artırılmasını təmin edən proqram-texniki komponentlərin olması.

2.2. Portalın idarə olunması dövlət-özəl tərəfdaşlığı prinsipinə və korporativ idarəetmə standartlarına əsaslanır.

## 3. Portalın infrastrukturu

3.1. Portalın infrastrukturu texniki-texnoloji və funksional baxımdan aşağıdakı əsas komponentlərdən ibarətdir:

3.1.1. proqram-texniki vasitələr;

3.1.2. telekommunikasiya kanalları;

3.1.3. elektron xidmətlər modulu;

3.1.4. idarəetmə sistemi;

3.1.5. ödəniş modulu;

3.1.6. ehtiyat mərkəzi;

3.1.7. arxiv mərkəzi.

3.2. Portalın proqram-texniki vasitələri və telekommunikasiya kanalları bu Əsasnamənin 1.2-ci bəndində nəzərdə tutulan xidmətlərin və informasiya mübadiləsinin həyata

keçirilməsini, istifadəçilərin portaldan istifadəsini, portalın fəaliyyətinin etibarlılığını, təhlükəsizliyini və məlumatların mühafizəsini təmin edir.

3.3. Elektron xidmətlər modulu sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasında vergi ödəyicisi kimi qeydiyyatdan keçmiş şəxslərlə onların xarici biznes tərəfdaşları arasında sənədlərin, o cümlədən müqavilələrin elektron formada tərtibini və imzalanmasını, habelə real vaxt rejimində transsərhəd elektron xidmətlərin həyata keçirilməsini, Azərbaycan Respublikasında istehsal olunan malları elektron ticarət qaydasında təqdim edən ixracatçıların ixrac əməliyyatlarını həyata keçirmək üçün tələb olunan icazələri vahid elektron ərizə əsasında elektron qaydada əldə etmələrini, ixrac gömrük bəyannaməsini, habelə qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərin dövlət büdcəsi hesabına ixrac təşviqinin ödənilməsi məqsədilə müraciətlərin göndərilməsini, iştirakçıların informasiya sistemlərinin portala inteqrasiyasını və onlar arasında informasiya mübadiləsinin aparılmasını təmin edir.

3.4. Portalın idarəetmə sistemi onun məlumat bazasının formalaşdırılmasını, idarə olunmasını və istifadəsini təmin edir.

3.5. Ödəniş modulu portal vasitəsilə təqdim olunan malların dəyərinin real vaxt rejimində ödənilməsini, fiziki və hüquqi şəxslər tərəfindən köçürülmüş pul vəsaitinin saxlanmasını və onların tapşırığı ilə elektron ödənişlərin həyata keçirilməsini təmin edir.

3.6. Portalın fəaliyyətinin dayanıqlılığını və təhlükəsizliyini təmin etmək məqsədilə onun ehtiyat mərkəzi yaradılır və portalın proqram-texniki vasitələrinin nüsxəsi bu mərkəzdə saxlanılır. Formalaşan məlumatlar portalın məlumat bazasında, ehtiyat surətləri isə onun məlumat bazasının arxiv mərkəzində olur.

3.7. Portal sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasında vergi ödəyicisi kimi qeydiyyatdan keçmiş şəxslərlə onların xarici biznes tərəfdaşları arasında sənədlərin, o cümlədən müqavilələrin elektron formada tərtibi və imzalanması, real vaxt rejimində transsərhəd elektron xidmətlərin həyata keçirilməsi, habelə Azərbaycan Respublikasında istehsal olunan malları elektron ticarət qaydasında təqdim edən ixracatçılar tərəfindən ixrac əməliyyatlarının həyata keçirilməsi üçün tələb olunan icazələri vahid elektron ərizə əsasında elektron qaydada əldə etmələri, ixrac gömrük bəyannaməsinin, qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə dövlət büdcəsi hesabına ixrac təşviqinin ödənilməsi ilə bağlı müraciətlərin göndərilməsi məqsədilə elektron imza ilə daxil olmağa imkan verən autentifikasiya mexanizmləri ilə təchiz olunur.

## 4. Portalın funksiyaları

4.1. Portal vasitəsilə aşağıdakılar təmin olunur:

4.1.1. Azərbaycan Respublikasında istehsal olunan mallar və həmin malların istehsalçıları barədə məlumatların olması;

4.1.2. sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasında vergi ödəyicisi kimi qeydiyyatdan keçmiş şəxslərlə onların xarici biznes tərəfdaşları arasında sənədlərin, o cümlədən müqavilələrin elektron formada tərtibi və imzalanması;

4.1.3. real vaxt rejimində transsərhəd elektron xidmətlərin həyata keçirilməsi;

4.1.4. Azərbaycan Respublikasında istehsal olunan malları elektron ticarət qaydasında təqdim edən ixracatçıların ixrac əməliyyatlarını həyata keçirmək üçün qanunla tələb olunan icazələri vahid elektron ərizə əsasında elektron qaydada əldə etmək imkanının olması;

4.1.5. ixrac gömrük bəyannaməsinin, habelə qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə dövlət büdcəsi hesabına ixrac təşviqinin ödənilməsi üçün müraciətlərin göndərilməsi imkanının olması;

4.1.6. portal vasitəsilə təqdim olunan malların dəyərinin real vaxt rejimində ödənilməsi imkanının yaradılması və elektron pul kisəsinin olması;

4.1.7. elektron imza sertifikatlarının, habelə xarici ölkələrdə verilmiş və “Elektron imza və elektron sənəd haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən Azərbaycan Respublikasında tanınmış elektron imza sertifikatlarının inteqrasiyasının təmin olunması.

4.2. Portalın fəaliyyəti ilə əlaqədar aşağıdakı sahələrdə müvafiq informasiya resursları portala inteqrasiya edilir:

*4.2.1. Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi tərəfindən:*[5]

*1. ixrac edilən heyvanlara, heyvan mənşəli məhsullara və xammala baytarlıq sertifikatının verilməsi;*

*2. bitki və bitkiçilik məhsullarının ixracına (təkrar ixracına) fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının verilməsi;*

*3. xarici ölkələrə ixrac edilən qida və yem məhsullarına sağlamlıq sertifikatının verilməsi;*[6]

4.2.2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən:

~~1. Avropa İttifaqı ölkələrinə yeyinti məhsullarının ixracı üçün keyfiyyət sertifikatının verilməsi;~~[7]

2. malın mənşə ölkəsini təsdiq edən sertifikatın verilməsi;

3. ixrac əməliyyatlarının həyata keçirilməsini təmin edəcək hüdudlarda “Lisenziya və icazələr” portalı;

*4. fiziki və hüquqi şəxslərin vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN) barədə məlumatlar;*

*5. "ASAN imza" sertifikatının verilməsi;*[8]

4.2.3. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən:

1. kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin ixracı üçün icazənin (sertifikatın) verilməsi;

4.2.4. Azərbaycan Respublikasının Mədəniyyət ~~və Turizm~~ Nazirliyi tərəfindən:[9]

1. mədəni sərvətlərin ixracı üçün mədəni sərvətin mühafizə şəhadətnaməsinin verilməsi;

4.2.5. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən:

1. dini təyinatlı ədəbiyyatın (kağız və elektron daşıyıcılarda), audio və videomaterialların, malların (məmulatların) və dini məzmunlu başqa məlumat materiallarının ixracına razılıq verilməsi;

4.2.6. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən:

1. portal vasitəsilə bağlanmış müqavilələrə uyğun olaraq, ixrac gömrük bəyannamələrinin real vaxt rejimində doldurulması, təqdim edilməsi, habelə gömrük nəzarətinin nəticəsinin real vaxt rejimində qeyd edilməsi;

4.2.7. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən:

1. elektron imza sertifikatının verilməsi, habelə ixrac əməliyyatlarının aparılması ilə bağlı müraciətlərin portal vasitəsilə qəbulunu, cavablandırılmasını və bu məqsədlə Azərbaycan Respublikası Prezidentinin bu Əsasnamənin təsdiq edilməsi haqqında Fərmanının 7-ci hissəsində nəzərdə tutulan dövlət orqanları arasında məlumat mübadiləsinin aparılmasını təmin edəcək hüdudlarda "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi;

4.2.8. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən:

1. portal vasitəsilə dövlət rüsumunun və digər ödənişlərin həyata keçirilməsi məqsədilə "ASAN ödəniş" sistemi;

~~4.2.9. Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən:~~[10]

~~1. fiziki və hüquqi şəxslərin vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN) barədə məlumatlar;~~

~~2. "ASAN imza" sertifikatının verilməsi;~~

4.2.10. Azərbaycan Respublikasının *Rəqəmsal İnkişaf və Nəqliyyat* Nazirliyi tərəfindən:

1. "E-imza" sertifikatının verilməsi;

2. "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən Azərbaycan Respublikasında tanınmış elektron imza sertifikatları;

4.2.11. Azərbaycan Respublikasının *Mərkəzi Bankı* tərəfindən:[11]

1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin müraciəti əsasında ixrac təşviqinin ixracatçının Azərbaycan Respublikasındakı bank hesabına köçürülməsini təsdiq edən sənədlər barədə məlumatlar.

## 5. Portal vasitəsilə göstərilən digər xidmətlər

5.1. İstifadəçilər icazələrlə və ya investisiya təşviqi sənədi ilə bağlı qəbul edilmiş inzibati aktlardan portal vasitəsilə inzibati qaydada şikayət verə bilərlər. Həmin şikayətlərə inzibati orqan qanunla nəzərdə tutulmuş qaydada və müddətdə baxır, nəticə barədə qəbul edilmiş inzibati aktı istifadəçinin portaldakı elektron kabinetinə göndərir və portal vasitəsilə bu barədə onun elektron poçt ünvanına məlumat ötürülür.

5.2. İstifadəçilər portal vasitəsilə informasiya xarakterli sorğular göndərə, habelə portalın fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflər verə bilərlər. Həmin sorğulara (təkliflərə) inzibati orqan qanunvericilikdə nəzərdə tutulmuş qaydada və müddətdə baxır, nəticə barədə istifadəçinin müraciətində göstərilən elektron poçt ünvanına cavab göndərir.

## 6. Operatorun funksiyaları

6.0. Operatorun funksiyaları aşağıdakılardır:

6.0.1. portalın fəaliyyətini və idarə olunmasını təşkil etmək, portal vasitəsilə dayanıqlı, fasiləsiz, operativ və təhlükəsiz xidmət göstərilməsini təmin etmək, onun funksional imkanlarının artırılması və təkmilləşdirilməsi istiqamətində tədbirlər görmək;

6.0.2. iştirakçıların informasiya sistemlərinin portala təhlükəsiz inteqrasiyasını və onların qarşılıqlı əlaqəsini təmin etmək;

6.0.3. portala daxil edilən məlumatların etibarlılığını, əlçatanlığını, təhrifolunmazlığını və konfidensiallığını (məxfiliyini), habelə onların ehtiyat surətlərinin saxlanmasını və mühafizəsini təmin etmək;

6.0.4. portalın texniki-texnoloji infrastrukturunun, o cümlədən elektron sistemin komponentlərinin və proqram təminatının təyinatı üzrə istismarını, texniki xidmətini, təmirini və saxlanmasını təmin etmək, tərtib olunmuş qrafik üzrə müvafiq profilaktik işlər aparmaq;

6.0.5. elektron sistemin iştirakçılarına informasiya sistemləri arasında informasiya

mübadiləsinin sistem vasitəsilə həyata keçirilməsi üzrə təkliflər vermək, həmin təkliflər qəbul edildiyi halda onların həyata keçirilməsində iştirak etmək və yerinə yetirilməsinə nəzarət etmək;

6.0.6. istifadəçilərin qanunla tələb olunan dövlət rüsumlarını və ya ödənişləri portal, “ASAN ödəniş” sistemi, portala inteqrasiya olunmuş digər ödəniş sistemləri və terminalları vasitəsilə ödəməsi barədə məlumatların qəbulunu, portalın müvafiq iştirakçılarına və istifadəçilərinə çatdırılmasını təmin etmək;

6.0.7. portalın təhlükəsizliyinin pozulduğu, əsas avadanlıqlarda qəza (xəta) baş verdiyi hallarda elektron sistemin iştirakçılarını və istifadəçilərini bu barədə məlumatlandırmaq, dərhal onun aradan qaldırılması üçün müvafiq tədbirlər görmək, baş vermiş qəzanın (xətanın) qısa müddətdə aradan qaldırılması mümkün olmadıqda, portalın ehtiyat mərkəzinin fəaliyyətə başlamasını təmin etmək;

6.0.8. portala inteqrasiya olunan informasiya sistemlərinin, elektron xidmətlərin dayanıqlı və fasiləsiz fəaliyyətinin iştirakçılar tərəfindən təmin olunmasına nəzarət etmək;

6.0.9. iştirakçılar tərəfindən portal vasitəsilə icazənin, onun əlavəsinin, dublikatının verilməsi, yenidən rəsmiləşdirilməsi, dayandırılması, bərpası və ya ləğvi haqqında, habelə icazənin verilməsindən imtina edilməsi barədə məlumatın istifadəçilərin elektron kabinetinə, elektron poçt ünvanına və mobil nömrəsinə göndərilməsi imkanlarını təmin etmək;

6.0.10. iştirakçı portalın fəaliyyətini ləngidən, dayandıran, ona zərər vuran davranışlara yol verdikdə, həmin iştirakçıya nöqsanların aradan qaldırılması üçün xəbərdarlıq etmək, tələbləri yerinə yetirilmədikdə isə onun portaldakı fəaliyyətini bu nöqsanlar aradan qaldırılanadək dayandırmaq;

6.0.11. portala inteqrasiya olunmuş informasiya sistemlərinin təkmilləşdirilməsi ilə bağlı təkliflər vermək, həmin sistemlər müəyyən olunmuş texniki tələblərə cavab vermədikdə isə onlarda zəruri dəyişiklik edilməsi və təkmilləşdirmə aparılması barədə aidiyyəti iştirakçılara bildiriş göndərmək;

6.0.12. normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada informasiya təhlükəsizliyini, o cümlədən əldə edilməsi qanunla məhdudlaşdırılan informasiyanın qorunmasını təmin etmək;

6.0.13. qanunla müəyyən edilmiş qaydada informasiya təhlükəsizliyini təmin etmək və fərdi məlumatların istifadəsini və mühafizəsini təşkil etmək;

6.0.14. portal vasitəsilə icazənin, onun əlavəsinin, dublikatının verilməsi, yenidən rəsmiləşdirilməsi, dayandırılması, bərpası və ya ləğvi sahəsində qanunvericiliyin, o cümlədən bu Əsasnamənin tələblərinə riayət olunmasına nəzarət etmək;

6.0.15. portal vasitəsilə iştirakçılara metodiki rəhbərliyi və informasiya təminatını həyata keçirmək, portalın iş prinsipləri və funksional imkanları haqqında onlara məlumat vermək, kömək göstərmək, portaldan istifadə qaydaları və onun üstünlükləri barədə maarifləndirmə işi aparmaq;

6.0.16. informasiya sistemlərinin Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş texniki tələblərə uyğun fəaliyyət göstərməsinə nəzarət etmək;

6.0.17. bu Əsasnamədən irəli gələn digər funksiyaları yerinə yetirmək.

## 7. İştirakçıların funksiyaları

7.0. İştirakçılar aşağıdakı funksiyaları həyata keçirirlər:

7.0.1. öz informasiya sistemlərinin bu Əsasnamənin 6.0.16-cı bəndində nəzərdə tutulan texniki tələblərə uyğun portala inteqrasiya olunmasını təmin etmək, onların müəyyən edilmiş texniki tələblərə uyğunluğuna dair zəruri məlumatları operatora təqdim etmək;

7.0.2. portala inteqrasiya olunmuş informasiya sistemlərinin normativ hüquqi aktlarla müəyyənləşdirilmiş qaydada informasiya təhlükəsizliyinin təmin olunması, o cümlədən əldə edilməsi qanunla məhdudlaşdırılan informasiyanın mühafizəsi ilə bağlı tədbirlər görmək;

7.0.3. portalın fəaliyyətini ləngidən, ona zərər vuran, o cümlədən portalın fəaliyyətinin dayanmasına səbəb ola bilən hərəkətlərə yol verməmək;

7.0.4. portala inteqrasiya olunmuş informasiya sistemlərində operatorun əsaslandırılmış tələbinə uyğun dəyişiklik etmək və təkmilləşdirmə işləri aparmaq;

7.0.5. portala inteqrasiya olunmuş informasiya sistemlərində nəzərdə tutulan profilaktik, təmir, sazlama və digər texniki işlərin aparılacağı barədə operatoru ən azı 5 (beş) iş günü əvvəl məlumatlandırmaq;

7.0.6. portalın fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı operatora təkliflər vermək;

7.0.7. bu Əsasnamədən irəli gələn digər funksiyaları yerinə yetirmək.

## 8. İstifadəçilərin hüquqları

8.0. İstifadəçilərin aşağıdakı hüquqları vardır:

8.0.1. portal vasitəsilə icazənin verilməsi üçün müraciət etmək, sorğu vermək və cavablar almaq;

8.0.2. Azərbaycan Respublikasında istehsal olunan malların elektron ticarət qaydasında təqdim edilməsi ilə bağlı:

1. ixrac əməliyyatlarını həyata keçirmək üçün tələb olunan icazələri vahid elektron ərizə əsasında elektron qaydada əldə etmək;
2. ixrac təşviqinin ödənilməsi üçün müraciət etmək;
3. ixrac gömrük bəyannaməsini göndərmək;
8.0.3. sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar sənədləri, o cümlədən müqavilələri elektron formada tərtib etmək və imzalamaq, habelə transsərhəd elektron xidmətlərdən istifadə etmək;
8.0.4. elektron pul kisəsində hesab yaratmaq;
8.0.5. portal vasitəsilə edilmiş müraciətlərlə bağlı, icazələrin və ya investisiya təşviqi sənədinin verilməsindən imtina edilməsi barədə qəbul olunmuş inzibati aktdan portal vasitəsilə inzibati qaydada şikayət vermək;
8.0.6. portalın fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflər vermək;
8.0.7. bu əsasnamənin 5.1-ci və 5.2-ci bəndlərində nəzərdə tutulmuş müraciətlərə qanunvericilikdə nəzərdə tutulmuş qaydada və müddətdə baxılmasını iştirakçılardan tələb etmək;
8.0.8. portala daxil olmaq və oradan məlumatları əldə etmək;
8.0.9. bu əsasnamədən irəli gələn digər hüquqları həyata keçirmək.

## 9. Təhlükəsizlik tədbirləri

9.1. Portalda məlumatların işlənilməsi zamanı avtomatlaşdırılmış texniki vasitələrin işinin pozulmasına gətirib çıxaran təsirlərə yol verilməməlidir.
9.2. Məlumatların mühafizə səviyyəsinin daim nəzarətdə saxlanılması, onların təhlükəsizliyinə qarşı yönələn təhdidlərin müəyyənləşdirilməsi və ehtimal edilən təhdidlərin neytrallaşdırılmasını təmin edən mühafizə sisteminin işlənib hazırlanması və daim təkmilləşdirilməsi elektron sistemin təhlükəsizliyinin vacib elementi olmalıdır.
9.3. Operator məlumatlara qanunsuz müdaxilə faktlarının vaxtında aşkar edilməsini, qanunsuz müdaxilənin, məlumatların surətinin çıxarılmasının və (və ya) bu məlumatların onlarla işləməyə icazəsi olmayan şəxslərə ötürülməsinin qarşısının alınması, dəyişdirilmiş və ya məhv edilmiş məlumatların dərhal bərpası imkanının olmasını təmin etməlidir.
9.4. Portal üzrə məlumatların təhlükəsiz şəkildə yazılması, sistemləşdirilməsi, yenilənməsi, dəyişdirilməsi, çıxarılması, adsızlaşdırılması, saxlanılması, ötürülməsi, məhv edilməsi üçün mühafizə vasitələrinin, üsullarının istismar və texniki sənədlərə uyğunluğu barədə müvafiq sənəd olmalı, onlar istismar və texniki sənədlərə uyğun quraşdırılmalı və istismara verilməlidir.

## 10. Portaldan istifadə qaydası

10.1. Bu əsasnamənin 3.7-ci bəndində nəzərdə tutulan xidmətlərdən istifadə etmək üçün istifadəçi, ilk növbədə, elektron imza vasitəsilə portalda qeydiyyatdan keçərək elektron kabinet yaradır və həmin elektron kabinetdə müvafiq funksiyasını seçir.
10.2. Bu əsasnamənin 3.7-ci bəndində qeyd edilənlər istisna olmaqla, digər müraciətlər üçün qeydiyyat prosedurları (elektron imza, istifadəçi adı, şifrəsi və s.) tələb olunmur.
10.3. Portalda bu əsasnamənin 10.1-ci bəndinə əsasən seçilən funksiyaya uyğun olaraq açılan pəncərədə istifadəçi əməliyyatları aşağıdakı qaydada həyata keçirir:
10.3.1. sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasında vergi ödəyicisi kimi qeydiyyatdan keçmiş şəxslərlə onların xarici biznes tərəfdaşları arasında sənədlərin, o cümlədən müqavilələrin elektron formada tərtibi və imzalanması:
1. elektron müqavilə pəncərəsində istifadəçiyə aid zəruri məlumatlar (fiziki şəxsin soyadı, adı, atasının adı, hüquqi şəxsin adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi) portal tərəfindən iştirakçıların informasiya sistemlərindən götürülərək əks olunur;
2. sistem məlumatların tamlığını yoxlayır və təsdiq edildikdən sonra elektron müqavilə ilə bağlı istifadəçi tərəfindən digər xanaların doldurulması üçün yeni pəncərə açılır;
3. istifadəçi tərəfindən müqavilənin elektron formada tərtibi tam şəkildə başa çatdırıldıqdan sonra elektron imza ilə təsdiqlənir;
4. elektron müqavilə təsdiqləndikdən sonra qarşı tərəfin elektron kabinetinə göndərilir və bu barədə onun elektron poçt ünvanına bildiriş və (və ya) mobil telefonuna SMS göndərilir;
5. xarici biznes tərəfdaşlarının tərtib etdiyi elektron müqavilə Azərbaycan Respublikasında vergi ödəyicisi kimi qeydiyyatdan keçmiş şəxs tərəfindən bu yarımbəndin 3-cü abzasında nəzərdə tutulmuş qaydada təsdiqlənir;
10.3.2. sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasında vergi ödəyicisi kimi qeydiyyatdan keçmiş şəxslər tərəfindən transsərhəd elektron xidmətlərin həyata keçirilməsi:
1. seçilmiş transsərhəd elektron xidmətə müvafiq olaraq açılan pəncərədə istifadəçiyə aid zəruri məlumatlar (fiziki şəxsin soyadı, adı, atasının adı, hüquqi şəxsin adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi) portal tərəfindən iştirakçıların informasiya sistemlərindən götürülərək əks olunur;

2. sistem məlumatların tamlığını yoxlayır və təsdiq edildikdən sonra istifadəçi tərəfindən digər xanaların doldurulması üçün yeni pəncərə açılır;

3. istifadəçi tərəfindən tələb olunan bütün xanalar doldurulduqdan sonra məlumatlar elektron imza ilə təsdiqlənərək göndərilir;

4. məlumat və sorğu xarakterli transsərhəd elektron xidmətlərin həyata keçirilməsi üçün autentifikasiya və təsdiq tələb olunmur;

10.3.3. Azərbaycan Respublikasında istehsal olunan malları elektron ticarət qaydasında təqdim edən ixracatçılar tərəfindən ixrac əməliyyatlarının həyata keçirilməsi:

1. ixrac bölməsində açılan ərizə pəncərəsində istifadəçiyə aid zəruri məlumatlar (fiziki şəxsin soyadı, adı, atasının adı, hüquqi şəxsin adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi) portal tərəfindən iştirakçıların informasiya sistemlərindən götürülərək əks olunur;

2. sistem məlumatların tamlığını yoxlayır və təsdiq edildikdən sonra ərizədə istifadəçi tərəfindən digər xanaların doldurulması üçün yeni pəncərə açılır;

3. istifadəçi tərəfindən ərizədə ixrac olunacaq mal barədə məlumat qeyd olunur;

4. qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərin ərizədə ixrac təşviqinin ödənilməsi ilə bağlı qeydləri olmalıdır;

5. malın ixracına icazə tələb olunduğu hallarda, sistem tərəfindən ərizə real vaxt rejimində icazə verən orqana göndərilir. İcazənin verilməsi ilə bağlı müraciətlərə "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən baxılır;

6. icazə onu verən orqanın rəhbəri və ya onun həvalə etdiyi vəzifəli şəxs tərəfindən elektron imza ilə təsdiqlənərək istifadəçinin elektron kabinetinə göndərilir;

7. istifadəçi tərəfindən ixrac gömrük bəyannaməsi real vaxt rejimində doldurularaq, həmin malın elektron ticarət qaydasında təqdim edilməsi ilə bağlı xarici dövlətlə bağlanılmış müqavilə əlavə olunmaqla, gömrük orqanlarına göndərilir;

8. icazə tələb olunduğu hallarda, sistem tərəfindən icazə ixrac gömrük bəyannaməsinə əlavə olunur;

9. ərizədə ixrac təşviqinin ödənilməsi ilə bağlı məlumatlar qeyd olunduğu təqdirdə, bu barədə məlumatlar sistem tərəfindən real vaxt rejimində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə göndərilir. İxracatçıya ixrac təşviqinin ödənilməsi ilə bağlı müraciətə baxılmasının nəticəsi barədə istifadəçinin elektron kabinetinə, elektron poçt ünvanına və mobil nömrəsinə bildiriş göndərilir;

10.3.4. qeyri-rezidentlərə elektron imza sertifikatının verilməsi:

1. qeyri-rezidentlərə elektron imza sertifikatının verilməsi "Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza sertifikatının verilməsi Qaydası"nda müəyyən olunmuş qaydada tənzimlənir;

10.3.5. Sərbəst satış sertifikatının verilməsi:

1. "Sərbəst satış sertifikatı" bölməsində açılan ərizə pəncərəsində istifadəçiyə aid zəruri məlumatlar (fiziki şəxsin soyadı, adı, atasının adı, hüquqi şəxsin adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi) portal tərəfindən iştirakçıların informasiya sistemlərindən götürülərək əks olunur və ixrac üçün tələb olunan sənədlər portal vasitəsilə ərizəyə əlavə olunur;

2. istifadəçi tərəfindən ərizə təsdiq olunduqdan sonra, real vaxt rejimində, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə göndərilir;

3. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən sərbəst satış sertifikatının verilməsi və ya verilməsindən imtina edilməsi barədə 1 (bir) iş günü müddətində qərar qəbul olunur;

4. sərbəst satış sertifikatı İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin İcraçı direktoru tərəfindən elektron imza ilə təsdiqlənərək istifadəçinin elektron kabinetinə göndərilir. Müraciət edən şəxs, öz istəyindən asılı olaraq, sertifikatın kağız daşıyıcıda olan formasını İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzindən əldə edə bilər.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 13 iyun 2019-cu il tarixli **739** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 14 iyun 2019-cu il, № 128, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №6, maddə 1031)**
2. 29 yanvar 2021-ci il tarixli **1274** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 30 yanvar 2021-ci il, № 21, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, №1, maddə 44)**
3. 31 may 2022-ci il tarixli **1699** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 4 iyun 2022-ci il, № 116, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 5, maddə 467)**
4. 3 avqust 2022-ci il tarixli **1796** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 3 avqust 2022-ci il, "Xalq" qəzeti, 4 avqust 2022-ci il, № 163, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 8, maddə 856)**
5. 20 fevral 2023-cü il tarixli **2037** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 20 fevral 2023-cü il, "Xalq" qəzeti, 21**

**fevral 2023-cü il, № 39, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 2, maddə 245)**

6. 2 avqust 2023-cü il tarixli nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 2 avqust 2023-cü il, "Xalq" qəzeti, 3 avqust 2023-cü il, № 162)**

**FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 31 may 2022-ci il tarixli **1699** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 4 iyun 2022-ci il, № 116, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 5, maddə 467)** ilə "Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza sertifikatının verilməsi Qaydası"nın 1.2.3-cü, 1.2.8-ci yarımbəndlərində, 2.10-cu, 2.17-ci və 2.18-ci bəndlərində "**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar**" sözləri "**Rəqəmsal İnkişaf və Nəqliyyat**" sözləri ilə əvəz edilmişdir.

[2] 3 avqust 2022-ci il tarixli **1796** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 3 avqust 2022-ci il, "Xalq" qəzeti, 4 avqust 2022-ci il, № 163, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 8, maddə 856)** ilə "Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza sertifikatının verilməsi Qaydası"nın 1.2.4-cü, 1.2.8-ci yarımbəndlərində və 2.10-cu bəndində "**Vergilər Nazirliyinin**" sözləri "**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin**" sözləri ilə əvəz edilmişdir.

[3] 31 may 2022-ci il tarixli **1699** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 4 iyun 2022-ci il, № 116, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 5, maddə 467)** ilə "www.azexport.az" internet portalı haqqında Əsasnamə"nin 1.3.8-ci və 4.2.10-cu yarımbəndlərində "**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar**" sözləri "**Rəqəmsal İnkişaf və Nəqliyyat**" sözləri ilə əvəz əvəz edilmişdir.

[4] 3 avqust 2022-ci il tarixli **1796** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 3 avqust 2022-ci il, "Xalq" qəzeti, 4 avqust 2022-ci il, № 163, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 8, maddə 856)** ilə "www.azexport.az" internet portalı haqqında Əsasnamə"nin 1.3.9-cu yarımbəndində "**Vergilər Nazirliyinin**" sözləri "**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin**" sözləri ilə əvəz edilmişdir.

[5] 13 iyun 2019-cu il tarixli **739** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 14 iyun 2019-cu il, № 128, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №6, maddə 1031)** ilə "www.azexport.az" internet portalı haqqında Əsasnamə"nin 4.2.1-ci yarımbəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~4.2.1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi tərəfindən:~~

~~1. ixrac edilən heyvanlara, heyvan mənşəli məhsullara və xammala beynəlxalq baytarlıq sertifikatının verilməsi;~~

~~2. bitki və bitkiçilik məhsullarının ixracına (təkrar ixracına) fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının verilməsi;~~

[6] 20 fevral 2023-cü il tarixli **2037** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 20 fevral 2023-cü il, "Xalq" qəzeti, 21 fevral 2023-cü il, № 39, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 2, maddə 245)** ilə "www.azexport.az" internet portalı haqqında Əsasnamə"nin 4.2.1-ci yarımbəndinin 3-cü abzasında "**qida məhsullarına qida təhlükəsizliyi**" sözləri "**qida və yem məhsullarına sağlamlıq**" sözləri ilə əvəz edilmişdir.

[7] 13 iyun 2019-cu il tarixli **739** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 14 iyun 2019-cu il, № 128, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №6, maddə 1031)** ilə "www.azexport.az" internet portalı haqqında Əsasnamə"nin 4.2.2-ci yarımbəndinin birinci abzası ləğv edilmişdir.

[8] 3 avqust 2022-ci il tarixli **1796** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 3 avqust 2022-ci il, "Xalq" qəzeti, 4 avqust 2022-ci il, № 163, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 8, maddə 856)** ilə "www.azexport.az" internet portalı haqqında Əsasnamə"nin 4.2.2-ci yarımbəndinə yeni məzmunda 4-cü və 5-ci abzaslar əlavə edilmişdir.

[9] 29 yanvar 2021-ci il tarixli **1274** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 30 yanvar 2021-ci il, № 21, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, №1, maddə 44)** ilə "www.azexport.az" internet portalı haqqında Əsasnamə"nin 4.2.4-cü yarımbəndindən "**və Turizm**" sözləri çıxarılmışdır.

[10] 3 avqust 2022-ci il tarixli **1796** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 3 avqust 2022-ci il, "Xalq" qəzeti, 4 avqust 2022-ci il, № 163, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 8, maddə 856)** ilə "www.azexport.az" internet portalı haqqında Əsasnamə"də 4.2.9-cu yarımbənd ləğv edilmişdir.

[11] 2 avqust 2023-cü il tarixli nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 2 avqust 2023-cü il, "Xalq" qəzeti, 3 avqust 2023-cü il, № 162)** ilə "www.azexport.az" internet portalı haqqında Əsasnamə"nin 4.2.11-ci yarımbəndində "**Maliyyə Bazarlarına Nəzarət Palatası**" sözləri "**Mərkəzi Bankı**" sözləri ilə əvəz edilmişdi.